# Xəttin sənət möcüzəsi



Allah hər kəsə bir ömür və tale yolu verib. Hər kəs həmin payı yaşayır və həmin yolu keçir. Bir də Allah hər kəsə bir qabiliyyət verir. Birisinə az, birisinə də sıfır həddində.

İnsan insan kimi yaşadıqda onun ömrü mənalı olur, yoxsa ömrün qısalığı və uzunluğu heç bir əhəmiyyət kəsb etmir. Mənalı ömür isə düşüncə ilə mümkündür, madiyyatla yox. Nəfsinə əsir olan birisi ağac görəndə təsəvvürünə ət taxtası gəlir. Başqa birisi isə taxtanın cizgilərini metafizik aləmə gedən cizgilər kimi görür. İnsanı insan edən onun cismanı varlığı deyil, iç aləmində olan batini duyğulardır.

Hər bir sənətin əsasında zövq və duyğu dayanır, sadəcə onları hərəkətə gətirmək və istiqamətləndirmək lazımdır.

Hər bir həqiqi insanın boynuna bir insanlıq və vətəndaşlıq borcu düşür. Bu vəzifələr ümumbəşəri və cəmiyyətdə tutduğu mövqeyə görə olur. Bəşəri vəzifələr daha çətindir. Bu hər insana nəsib olmur.

İnsanın gözünü açan bədbəxtliklər və şiddətli sarsıntılar onun canında olan zəif odu alovlandırır. Cəmiyyət üçün və özü üçün tutduğu yeri müəyyənləşdirir. Bu zəif odu alovlandıran səbəblər mənim də qismətimə düşüb. Allahın verdiyi səbr və qabiliyyət sayəsində canımda olan hiss və duyğularımı ağac üzərində ərəb xəttinin möcüzəli naxışları vasitəsilə üzə çıxarmışam. Gördüyüm işləri cəmiyyətə çatdırmaq jurnalist və televiziyanın üzərinə düşüb və bu istiqamətdə çox işlər görülüb. Yazılıb və göstərilib. Buna görə səmimi qəlbdən zəhmət çəkənlərə təşəkkür edir, hamısına can sağlığı arzulayıram.

Əzim Əzimzadə adına rəssamlıq məktəbini, Mirzağa Əliyev adına İncəsənət İnstitutunu bitirmişəm. Bunların heç birində özümü tapa bilməmişəm. Taleyin qismətinə baxın, quru ağac parçalarında gördüyüm işlər üçün yarandığıma sevinmişəm. Deməli, hər kəsin canında görmək, götürmək, yaratmaq hissləri varsa, bunun üçün zaman, məkan və şərait hər şeyi həll edirmiş. Əlyazmalar İnstitutuna düşdüyümə şərait yaradanlara və səbəb olanlara Allahdan həmişə rəhmət diləyirəm. 1964-cü ildən Əlyazmalar İnstitutunda işləyirəm. 1982-ci ilə qədər mənim üçün maraqlı görünən müxtəlif ölçü və biçimdə olan əlyazmalar və onlarda işlənən zərif naxış və xətt nümunələri nəhayət, öz bəhrəsini verdi. Hamıya məlum olan işlərimi gördüm. Bunun üçün ömrüm boyu məni narahat edən, içimdəki şöləni alovlandıran duyğulara borcluyam.

Məlum olduğu kimi, bu sahədə, ağac üzərində xəttoyma işində heç bir ustam, ustadım olmayıb. Yeganə müəllimim əlyazmalardır. Allahın lütfü, bir də öz zəhmətim və səyim məni siz tanıdığınız sənət vurğununa çevirib. Ərəb xəttinin sənət möcüzəsi məni bu yola gətirib.

Bu sahədə gördüyüm işlərin yolu da özümündür, cığırı da. Zaman-zaman görülən sənət işlərinin ustadları olub. Bu ustadlar gördüyü işlərdən başqa, özlərindən sonra şagirdlərini - gördükləri işlərin mükəmməl davamçılarını yaratmışdılarsa, onlar daha çox ehtirama layiq olmuşlar. Bu sahədə mən gördüyüm işlərdən rahatlıq duyduğum qədər öyrətdiyim, mükəmməl ustalara çevirdiyim Firudin, Samir, Yədulla və Vüqarın gördüyü işlər də məni qürurlandırır, sevindirir. Bunların hər biri müxtəlif illərdə respublika səviyyəsində mötəbər sərgilərdə iştirak edərək dəyərli - I və II yerləri tutublar.

Xoşbəxt sənətkaram ki, fəaliyyətim tək özümün yaratdığım əsərlərlə məhdudlaşmır. Elə yetirmələrim də mənim əsərlərimdir, desəm, zənnimcə, səhv etmərəm. Onlar mənim qoyduğum izin layiqli davamçıları, sabaha bağladığım ümidlərimdir. Həyat özü bir məktəbdir, deyirlər. Mən öyrədə-öyrədə öyrənənlərdənəm. Hər gün yeni bir şey öyrənir, onu öz sahəmə tətbiq edirəm. Yaradana şükürlər olsun ki, məni bu yolda üzüqara etmir. Əlimdən çıxan hər bir işin neçə-neçə insanın ürəyini ovsunladığını görəndə ürəyim dağa dönür, fərəhlənirəm. Ağrılarımı, acılarımı nisbətən unuduram. Xətt həm də alın yazısıdır. Bu mənim taleyimdir, öz ərəb xəttində olduğu kimi dolanbac və mürəkkəb cizgilərlə dolu taleyimi yaşayıram. Verdiyinə şükür tanrının. Bir yandan alanda, bir yandan verir. Allaha bir də ona görə şükür edirəm ki, məni ağac parçasına ət taxtası kimi baxanlardan etməyib. Odur ki, bundan sonra qismətimə yazılan ömür payının elə-beləcə də davam etməsini arzulayır və hər zaman əlimi göylərə qaldırıb dualar edirəm ki, ölməkdə olan ümid qığılcımlarını sönməyə qoymasın. Bax, onda mənim yaradıcılıq fəaliyyətimdə yeni-yeni səhifələr açılacağına bütün varlığımla inanıram. İşlərimə maraq göstərən və dəyər verən hər bir kəs mənim üçün doğma və yaxındır.

Allahdan həm də ona görə razıyam ki, gəzəndə görmək, görəndə götürmək qabiliyyətini mənə bəxş edib. Bəlkə də elə bu səbəbdəndir ki, yazıçılığım, şairliyim olmasa da, qəlbimdən keçən hissləri hərdən bircə cümlə ilə də olsa ifadə edəndə mənəvi yüngüllük tapıram, bəzən, eşitdiklərimi, gördüklərimi də müəyyən əhvalatlar şəklində qələmə alıram. Siz hər zaman məni ağac üzərində xəttoyma sənətkarı kimi tanıyıb təqdir etmisiniz. Bu dəfə isə mən gördüklərimi və duyduqlarımı duyumlarım, deyimlərim və düyünlərim şəklində sizlərə təqdim etmək qərarına gəldim.

İndiliksə, yeni görüşlərədək, mənim möhtərəm yaxınlarım, doğmalarım.

## Deyimlərim...

***“Əgər mən musiqi aləintə çala bilsəydim, o zaman mizrabı simlərə deyil, insan qəlbinə toxundurardım...”***

Gecə əsəbi bir kişiyə, gündüz mələk kimi qadına bənzər.

* * *

Cavanlıqda ayağımı əyri qoyurdum, düz düşürdü. İndi isə düz qoyuram, əyri düşür.

* * *

Neçə illərdi ki, evdən çıxıb eyni yollarla işə gedirəm. Mənə elə gəlir ki, həmin yolu o vaxt getdiyim sürətlə gedirəm. Ancaq arxadan gələnlərin hamısı gəlib məni keçir.

* * *

Yatağım necədirsə, elədir yatmağım da,
Necə otururamsa, elədir durmağım da...

* * *

Mən əllərimi gecə-gündüz Allah dərgahına tutaraq yalvarıram ki, insanlar dünyaya gələndə riyadan, xəbislikdən, kin-küdurətdən, ikiüzlülükdən, yaltaqlıqdan, insafsızlıqdan uzaq olsunlar. Bəzən elələrinə rast gəlirəm ki, düşünürəm, yəqin bunlar mənim Allaha yalvarışlarımdan qabaq doğulublar...

* * *

Nə deyim anam haqda, nə söyləyim düzü mən,
Anam çox sevir məni, mən anamı bilmirəm.

* * *

Mənim dilim qəlbimin mizrabıdır.

* * *

Mən təbiətin yaratdığı canlı bir simiyəm. O mənimlə ancaq qəm havası çalır.

* * *

Sən məni incidirsən, mənim əzablarım sənə xoş gəlir. Ancaq bilmirəm ki, bu əzablarım məni sənə istədir, yoxsa yox.

* * *

Sən təmiz saf susan, ona hələ heç bir kölgə düşməyib.

* * *

Mənə öz gəncliyimi uzaqdan çalınan musiqi xatırladır.

* * *

Tutqun gün qaraqabaq insana bənzəyir, çünki o heç kimi sevindirmir.

* * *

Ölmək üçün doğuluruq, yaşamaq üçün ölürük.

* * *

Mən pis adamam, ancaq haqsız deyiləm.

* * *

İnsanın hissə qapılması şehli dumana bənzəyir. Şeh təbiəti necə gözəlləşdirirsə, keçirdiyi hisslər də insanı o qədər ecazkar göstərir.

* * *

Bir kora toxundum, çəliyi əlindən yerə düşdü. Mən çəliyi yerdən götürüb ona vermək istəyirdim ki, o mənə dedi: “Sən onu tapa bilməzsən, ey insan, yəqin sən də mənim kimi korsan”.




* * *

Dünyanın sənət adamları payız haqqında dəyərli sözlər deyib. Mən isə payız fəslini nurani, ömrünün qürub çağına doğru addımlayan, özü ilə insani keyfiyyətləri aparan bir qocaya bənzədirəm.

* * *

İçərişəhəri bir xalqın mənəviyyatını özündə cəmləşdirən, miniatürlərlə bəzənmiş əlyazma kitabına bənzədirəm. Bu kitabın səhifələrini dəyişdirən bu xalqa xəyanət etmiş olur.

* * *

Şirvanşahlar Sarayı Azərbaycanın mənəviyyat zirvəsidir.

* * *

İçərişəhərdə saxlanılan və qorunan qəbir daşları əcdadlarımızın daşlaşmış yaddaşlarıdır.

* * *

Təbiət başdan-ayağa möcüzədir. İstər canlıları, istərsə də daşı-torpağı. Bu möcüzəni görmək, duymaq və bilmək lazımdır. Kim görürsə, bilirsə, o insan duyğulu, duyumlu, bilikli və insaflı olur. Bir sözlə, başqalarından fərqli olur.